**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**31 mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar**

# B Ə Y A N A T I

Son iki yüz ildə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı məqsədyönlü soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının qan yaddaşına heç vaxt unudulmayacaq, ağrılı səhifələr kimi daxil olmuşdur.

Xalqımızın başına gətirilən müsibətlər tarixin dərin qatlarına gedib çıxır. Belə ki, Rusiya və İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Azərbaycanın parçalanması prosesi başlanmışdır. Xaricdən on minlərlə erməni köçürülərək tarixi Azərbaycan torpaqları olan İrəvan quberniyasında, Naxçıvanda, Qarabağda, habelə digər bölgələrdə yerləşdirilmişdir. 1828-1830-cu illərdə Azərbaycan torpaqlarına İrandan 40 min, Türkiyədən isə 84 min erməni köçürülmüş, beləliklə, bölgə əhalisinin etnik tərkibi məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilmişdir. Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-53-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Ötən əsrin əvvəllərində xalqımıza qarşı yürüdülən bu mənfur siyasət nəticəsində azərbaycanlılar öz əzəli torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirmişlər. İyirminci əsrin sonunda isə erməni işğalçıları Dağlıq Qarabağı və ətraf yeddi rayonu - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayılı zəbt etmişlər.

Təkcə ötən əsrdə Azərbaycan əhalisi dörd dəfə (1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə) erməni millətçiləri tərəfindən insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulması hallarına, qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə və deportasiyaya məruz qalmışdır.

1918-ci ilin mart qırğınları xalqımıza qarşı zaman-zaman həyata keçirilən soyqırım siyasətinin ən dəhşətli təzahürlərindən biri kimi Azərbaycan tarixinə qanla yazılmışdır. Erməni daşnakları üç gün ərzində Bakıda 12 min azərbaycanlının həyatına son qoymuş, qocaları, qadınları və uşaqları amansızcasına qətlə yetirmiş, qiymətli tarixi abidələri məhv etmişlər. Qubada, Xaçmazda, Şamaxıda, Lənkəranda və digər bölgələrdə də bu cür faciələr törədilmişdir.

1918-1920-ci illərdə Azərbaycanın yüzlərlə şəhər və kəndi, o cümlədən Qarabağın dağlıq və dağətəyi hissəsində azərbaycanlıların yaşadığı 150-yə yaxın kənd xarabalığa çevrilmiş, 50 mindən çox soydaşımız qətlə yetirilmişdir.

Azərbaycanda ermənilər tərəfindən kütləvi qətllər təşkil edilmişdir. Qətllərin izini gizlədərkən soyqırım qurbanlarının meyitlərini quyulara doldurub üstünü torpaqlamışdılar. Qətlə yetirilənlərin bir çoxu yandırılmışdır.

Erməni daşnakları müsəlmanların müqəddəs yerlərinə hücum edərək, məscidlərdə belə insanları qətlə yetirmiş, bu məbədgahları dağıtmışlar. Həmin qanlı hadisələr zamanı Bakıdakı Təzəpir məscidinə sığınaraq, buraya pənah gətirmiş 500 nəfərin cəsədi bu ibadətgahdan tapılmışdı. Bakıdakı Fövqəladə İstintaq Komissiyası 1918-ci ilin martında 30.000 insanın qətlə yetirildiyini müəyyən etmişdir.

Şovinist erməni millətçiləri azərbaycanlıların öz tarixi torpaqlarından qovulmasına sovet dövründə də nail olmuşlar. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin qərarı ilə 150

min azərbaycanlı Ermənistan SSR ərazisindən deportasiya edilərək, Azərbaycanın Kür-Araz ətrafı bölgələrinə köçürülmüşdür. Həmin tarixi haqsızlıq uzun müddət siyasi-hüquqi qiymətini almamış, nəhayət, Azərbaycan Respublikası Prezidentinin «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında"» 18 dekabr 1997-ci il tarixli Fərmanı ilə heç bir beynəlxalq normaya sığmayan qeyri-qanuni köçürülmə siyasətinə hüquqi qiymət verilmişdir.

1988-ci ildə Ermənistan SSR Ali Soveti «Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında»" hüquqazidd qərar qəbul etdikdən sonra erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı başlanmışdır. Bu təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 10 minlərlə insan kütləvi qırğınların qurbanı olmuş, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, yüzlərlə yaşayış məntəqəsi, təhsil və səhiyyə obyektləri, tarixi abidələr dağıdılmışdır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarlarının sovet hərbi birləşməsinin köməyi ilə Xocalı şəhərində Azərbaycan xalqına qarşı törətdikləri soyqırım zamanı 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 dinc sakin girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalmışlar. Bu hadisələr zamanı soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur.

Beynəlxalq hüquqa görə, soyqırım ən ağır beynəlxalq cinayət olmaqla, təcavüz, insanlıq əleyhinə, müharibə və beynəlxalq terrorizm kimi sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir.

Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında"» Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyaya görə, soyqırım hər hansı milli, etnik, irqi yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən hərəkətlərdir. Soyqırım və insanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir.

Azərbaycanlılara qarşı soyqırımı siyasəti erməni şovinist millətçiləri tərəfindən yüzillər boyu planlı və məqsədyönlü surətdə həyata keçirilib. Ermənistanın yürütdüyü terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir, ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ də yerinə yetirmir. Ermənistanın bəşəriyyət üçün təhlükə törədən əməllərinə dünya birliyi tərəfindən siyasi, hüquqi qiymət verilməməsi yeni beynəlxalq cinayətlərin törədilməsinə şərait yaratmışdır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri beynəlxalq cəviyyədə öz siyasi-hüquqi qiymətini almamış bu qanlı soyqırım tarixin açılmamış səhifələrindən biridir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci tarixli «Azərbaycanlıların soyqırımı haqqında"» Fərmanında bu hadisələrə siyasi qiymət verilmiş və ilk dəfə olaraq azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldıqlarını rəsmi surətdə bəyan etmişdir.

1998-ci ildən etibarən 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi hər il dövlət səviyyəsində qeyd edilir.

Həqiqətdən kənar, saxta sənədlərdə guya soyqırıma məruz qaldıqlarını sübuta yetirməyə çalışan işğalçı Ermənistanın törətdiyi əməllərə dünya birliyi tərəfindən layiq olduğu qiymətin veriməsi vaxtı artıq çatmışdır.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı yürüdülən soyqırım siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı barədə məsələ son vaxtlarda müxtəlif ölkələrin parlamentlərində, o cümlədən Amerika konqresində müzakirə obyekti olmuşdur. Xalqımıza qarşı törədilən dəhşətli soyqırımın tanınmasında belə yanaşmalar ilk addımlar olsa da, bu gün qətiyyətlə deməyə imkan verir ki, dünya ictimaiyyəti Azərbaycanın haqlı mövqeyini artıq müdafiə edir.

Beynəlxalq terrorizmə qarşı mübarizə aparmağı qarşısına məqsəd qoyan dünya içtimayyəti, nəhayət, artıq sözdən əməli işə keçməli, Azərbaycan xalqının başına gətirilən bu müsübətlərə obyektiv siyasi hüquqi qiymət verməli və təcavüzkar Ermənistan öz layiqli cəzasını almalıdir. İndiki zamanda digər xalqlara və dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış etmək yolverilməzdir. Azərbaycan tərəfin məqsədləri saf və təmizdir. Xalqımız öz tarixini, Azərbaycanın həqiqətlərini hamının daha yaxşı bilməsinə və qəbul etməsinə çalışır.

Ümid edirəm ki, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləyəcək, ədalət tezliklə öz yerini tapacaq, soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan dövlətinə qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunacaqdır. Əldə olunmuş atəşkəs son dövrlərdə Ermənistan tərəfindən tez-tez pozulur, atılan mərmilər sərhəd kəndlərində yaşayan dinc sakinlərin, o cümlədən ön mövqedə keşik çəkən neçə-neçə azərbaycanlı əsgərin həyatına son qoyur, onları yaşamaq hüququndan məhrum edir.

İnanırıq ki, Siz Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın, Azərbaycan xalqının pozulmuş hüqüq və azadlıqlarının bərpa edilməsində bütün imkanlarınızı səfərbər etməklə yardımçı olacaqsınız.

Böyük ümidlə dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və dünya xalqlarına müraciət edərək Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, soyqırımına son qoyulacağına, bu ağrılı münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına dəstək veriləcəyinə, işğal olunmuş torpaqların qaytarılacağına, qaçqına və məcburi köçkünə çevrilmiş yüz minlərlə soydaşımızın öz yurdlarına dönəcəyinə, onların pozulmuş hüquq və azadlıqlarının bərpa ediləcəyinə inanırıq.

**Elmira Süleymanova**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**27 mart 2006-cı il**

Bəyanat BMT-nin Baş Katibinə, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına və bu qurumlara üzv olan Ombudsmanlara, xarici ölkələrin Azərbaycandakı səfirliklərinə və Azərbaycan Respublikasının xarici dövlətlərdəki səfirliklərinə ünvanlanmışdır.